# *Umayra TAĞIYEVA:* "Maştağa İxtisaslaşmış Aeroloji Stansiyasında müşahidələrin bərpa olunması böyük əhəmiyyətə malikdir"

**"Bütün dünyada olduğu kimi, Azərbaycanda da atmosferin müxtəlif parametrlərində daim müşahidələr aparılır. Bu məlumatların vacibliyi ondan ibarətdir ki, istənilən təhlükəni əvvəlcədən proqnozlaşdırmaqla fəsadları minimuma endirmək mümkündür".**




AZƏRTAC xəbər verir ki, bu sözləri ekologiya və təbii sərvətlər nazirinin müavini Umayra Tağıyeva jurnalistlərə açıqlamasında söyləyib.

O bildirib ki, Maştağa İxtisaslaşmış Aeroloji Stansiyasında müşahidələrin bərpa olunması ölkəmizdə hidrometeorologiya sahəsinin inkişafında böyük əhəmiyyətə malikdir. Bu həm də atmosferin müxtəlif təbəqələri üzrə dəyişmələri müşahidə etməyə imkan verir.

---

Azərbaycan.- 2024.- 10 avqust, (№169).- S.7.